Ədalət.- 2021.- 20 fevral. S. 9.

# "Hər saniyəmiz ölümə bərabər idi"

*Qəhrəmanım Şıxəliyev Nahid İslam oğludur. Qarabağ müharibəsi iştirakçısıdır Nahid. Müharibənin ilk günlərindən könüllü şəkildə döyüşlərə yollanıb və vuruşub: "Füzuli rayonu istiqamətində vuruşurdum. Füzuli azad olunduqdan sonra Qubadlı istiqamətində döyüşlərdə iştirak etdim. Sonuncu döyüşüm isə Şuşa şəhəri uğrunda oldu. Şuşa şəhəri istiqamətində olan döyüşlərdə yaralandım. Sağ budumdan və sol əl biləyimdən snayper gülləsi ilə vuruldum. Hazırda yataq xəstəsiyəm".*



*Qəhrəmanım söyləyir ki, döyüşlərdə böyük ruh yüksəkliyi ilə iştirak edib: "Bu hala düşməyim torpaqlarım uğrunda olub. Millətim, Dövlətim naminə canımdan, qanımdan keçdim. Mənim üçün bu, ən böyük bir fəxrdir. Bundan qürurlu bir şey ola bilməz". Döyüş xatirələrinə nəzər salanda isə Nahid həmin günləri belə xatırlayır: "Yaxşı döyüş yoldaşlarım var idi. Hər kəs ruh yüksəkliyi ilə döyüşlərdə iştirak edirdi. Müharibə itkisiz olmur təbii ki. Allah Şəhidlərimizə rəhmət eləsin. Dostlarımız oldu ki, Şəhid oldular. Mən özüm yaralananda təəssüf etdim ki, onlar Şəhid oldular, amma mən yaralandım, sağ qaldım. Bu gün həmin anları xatırlayanda təəssüflənir və deyirəm ki, kaş mən də Şəhid olardım.*

*Döyüş yoldaşlarımdan məni ziyarətə gələnlər də var. Bilirsiniz, müharibədə hər kəsin bir məqsədi var idi-yalnız irəli. Kimsə arxaya qayıtmaq haqqında düşünmürdü.*

*Hər kəs bir şeyi fikirləşirdi, ölmək var, dönmək yoxdur. Torpaqlarımızın alınması ən böyük məqsədimiz idi. Hər saniyəmizin ölümə bərabər olmasına baxmayaraq heç kimin gözündə qorxu yox idi. Ölümün içində olsaq da, qorxmurduq".*

***R. Tahir***